

# Kanadada Azərbaycan mədəniyyəti günü təşkil edilib

**Kanadada fəaliyyət göstərən Alberta Azərbaycan Mədəniyyət Mərkəzi bu ölkədə ilk dəfə olaraq "Azərbaycan mədəniyyəti günü" tədbirini təşkil edib. Mərkəzdən AzərTAc-a bildiriblər ki, tədbir Alberta əyalətinin Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycanın Kanadadakı səfirliyinin dəstəyi ilə keçirilib.**

Tədbirdə "Kalqari ulduzları" qrupu Azərbaycanın milli rəqslərini, o cümlədən "Tərəkəmə", "Naxçıvani", "Nəlbəki", "Sarı gəlin" və s. ifa ediblər. Həmçinin Yapon Cəmiyyəti tərəfindən kimononun hazırlanması, yerli "HYMN" qrupunun ifasında canlı musiqi, "Qaya-Kalqari" qrupunun ifasında isə "Bəri gəl" xalq mahnısı təqdim olunub. Soydaşımız Təhminə Rafaella tərəfindən İçərişəhərlə bağlı filmin təqdimatı da olub.

Tədbirdə qonaqlar Azərbaycanın milli şirniyyatlarından, o cümlədən paxlava və şəkərburadan dadıblar.

Alberta əyalətinin mədəniyyət və turizm naziri Rikardo Miranda çıxış edərək belə gözəl tədbirin təşkilinə görə mərkəzin üzvlərinə minnətdarlığını bildirib.

Mərkəzin prezidenti Famil Qarayev Kalqaridə yaşayan azərbaycanlılar adından xatirə hədiyyəsi olaraq üzərində Azərbaycan xalçasının əks olunduğu plaketdən, ölkəmizlə bağlı nəşrlərdən və milli şirniyyatlarımızdan ibarət xonçanı R.Mirandaya təqdim edib.

Aydın yol.-2016.-15 oktyabr.-S.3.